Ədəbiyyat qəzeti

24 oktyabr 2020-ci il 31



Əbülfəz MUXTAROĞLU

# *Məmməd Araza məktub*

*Gözün aydın, Məmməd Araz!*
*"Qoca Vulkan" oyanıbdı.*
*Arxasında türk lideri,*
*Mərd Ərdoğan dayanıbdı.*

*Baş komandan - Heydəroğlu*
*Qarabağa cızıb yolu.*
*Bayrağımız sağı-solu,*
*Yollar nura boyanıbdı.*

*Çürük ipdən yumaq olmaz,*
*Əsil-kökə yamaq olmaz.*
*İlhamla oynamaq olmaz,*
*Bu dünya indi qanıbdı.*

*Açılmayan sirr olmuşuq,*
*Bir müqəddəs pir olmuşuq.*
*Yumruq kimi bir olmuşuq!*
*Dığa bizi nə sanıbdı?!*

*Üzüm gülür gördükcə mən,*
*Gülür Vətən, açır çəmən.*
*Dünən qan-qan deyən düşmən,*
*Boynun büküb, sozalıbdı.*

*Şehlənibdir xarı bülbül,*
*Vəcdə gəlib sarı bülbül.*
*Səslə gəlsin sarı bülbül,*
*Şuşam yenə ballanıbdı.*

*Qocalığı, korluğu yıx,*
*Muxtaroğlu, səfərə çıx.*
*Qarabağı köksünə sıx!*
*Deməsinlər qocalıbdı.*

*20.10.2020*
*Naxçıvan*